AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A Tel.: (+994 12) 441 26 03 Faks: (+994 12) 493 06 95
www.health.gov.az e-poçt: office@health.gov.az

"19" yanvar 2016-cı il № 3

# ƏMR

**"Donuz qripi xəstəliyinə qarşı əlavə tədbirlər barədə"**

Azərbaycan Respublikası ilə həmsərhəd olan ölkələrdə donuz qripinə görə epidemioloji vəziyyətin kəskin ağırlaşmasını nəzərə alaraq infeksiyaya qarşı əlavə tədbirlərin görülməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. ambulator-poliklinik müəssisələrin, həmçinin yoluxucu xəstəxanaların (şöbələrin) işçilərinin qoruyucu maskalardan mütləq qaydada istifadə edilməsi təmin olunsun;

1.2. xəstələrlə təmasda olan və onlara qulluq göstərən şəxslər xəstəliyin inkubasiya dövründə tibbi nəzarətdə saxlanılsın.

2. Respublikanın şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın:

2.1. məktəbəqədər uşaq müəssisələrinin və məktəblərin girişində xüsusi göstərişədək tibbi müşahidə (filtr) təşkil olunsun, qrip xəstəliyinə şubhəli uşaqlar aşkar olunduqda dərhal sağlam uşaqlardan təcrid edilsin;

2.2. xəstəliyin profilaktikası məqsədi ilə Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış yaddaş vərəqinin tibb müəssisələri, kütləvi informasiya vasitələri, həmçinin əhali arasında paylanılması təmin edilsin.

3. bakı şəhər Dezinfeksiya Stansiyasının baş həkimi A.Məmmədova tapşırılsın ki, Bakı şəhər rayonlarının, Sumqayıt və Gəncə şəhərlərinin gigiyena və epidemiologiya mərkəzlərinin direktorları ilə birgə məktəbəqədər uşaq müəssisələrində və məktəblərdə əvvəlcədən hazırlanmış cədvəl üzrə dezinfeksiya tədbirlərinin aparılması təşkil olunsun.

4. Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinin direktoru R.Rüstəmbəyova tapşırılsın:

4.1. bu əmrə əlavəyə uyğun olaraq qrip əleyhinə istifadə olunan dərman preparatları və fərdi qoruyucu vasitələrin bölgüyə əsasən qısa müddətdə yerlərə çatdırılması təmin edilsin;

4.2. qripə şübhəli xəstələrdən nümunənin götürülməsi üçün xüsusi aplikatorların, həmçinin xəstəliyin laborator diaqnostikası və müalicəsi üçün əlavə testlərin və spesifik dərman preparatlarının alınması təmin edilsin.

5. Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi H.Mürsəlova tapşırılsın ki, respublikanın şəhər və rayonlarında ağır kəskin respirator infeksiyalı xəstələr üçün lazım gəldikdə konsultantların göndərilməsi və bu xəstələrin Bakı şəhərinin tibb müəssisələrinə çatdırılması təmin edilsin.

6. Bakı şəhəri Baş Səhiyyə İdarəsinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi R.Nağıyevə tapşırılsın:

6.1. ağır kəskin respirator infeksiyalı xəstələr Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutuna, Kliniki Tibbi Mərkəzə və 7 nömrəli Uşaq Yoluxucu Xəstəxanasına dərhal hospitalizasiya edilsin;

6.2. kəskin respirator infeksiyalarla müraciətlər barədə Səhiyyə Nazirliyinə gündəlik məlumatın verilməsi təmin edilsin.

7. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri V.Qasımova həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 19.01.2016-cı il tarixli 3 nömrəli əmrinə əlavə

**Qrip əleyhinə istifadə olunan dərman preparatlarının və fərdi qoruyucu vasitələrin**

**SİYAHISI**

Siprofloksasin 500 mg

Siprofloksasin 2mg/ml

Ambroksol hidroxlorid 30mg

Ambroksol hidroxlorid 3mg/ml

Azitromsin 500 mg

Seftriakson 1,0

Umifenovir (Arbidol) 100 mg

Dimedrol 1%1ml

Qoruyucu maska